Mənim İlk Kitabım



# HAMIDAN QƏŞƏNG

altun kitab

4
84.2(5Aze)
Y94
F. Köçərli adına Azərbaycan Dövlət Uşaq KİTABXANASI
İNV. № 64104





Güllü-çiçəkli qəşəng bir həyətdə Qaraş adlı balaca, qapqara bir küçük yaşayırdı. O, çox ürəyiaçıq və xeyirxah idi. Həyətdəki sərçələrlə, toyuq-cücə ilə, hətta dalaşqan xoruzla dostluq edir, mehriban davranırdı. Təkcə Ağmur adlı nazlı-qəmzəli, lovğa pişik Qaraşla yola getmirdi.

2015-fond







Bir gün Qaraş həyətdə oynayan zaman Ağmurla bərk toqquşdu. Ağmur hirslənib qışqırdı:

– Bura bax, ayağının altını görmürsən?

– Sən özün necə? Məgər məni görmürdün? – Qaraş incik səslə dedi.

Pişik kinayə ilə bərkdən güldü:

– Mən səni görməyə bilərəm. Torpaqdan seçilmirsən, qapqarasan! Ancaq məni görməmək mümkün deyil, çünki ağappağam.

Qaraş bu sözlərdən pərt oldu. Başını aşağı salıb öz yuvasına girdi.



Ertəsi gün Qaraş əhəng tozunun içində oynadı və bütün bədəni bozumtul-ağ rəngdə oldu. O, başını dik tutaraq həyətdə gəzməyə başladı. Ağardığı üçün özünü çox xoşbəxt hiss edirdi. Həyətin sakinləri təəccüblə ona baxırdılar. Hətta Ağmur deməyə söz tapmayıb öz küncünə çəkildi.





Axşamtərəfi həyətin sakitliyini toyuğun qaqqıltısı pozdu:

– Ay-haray! Kömək edin! Cücəm hovuza düşüb!

Doğrudan da, dəcəl cücələrdən biri suda çırpınırdı. Bunu görən Qaraş cəld suya atıldı. Başı ilə cücəni itələ-yə-itələyə hovuzun qırağındakı daşın üstünə çıxardı.

Qaraş sudan çıxdı, silkələnib özünü qurutmağa başladı. Bu zaman pişiyin kinayəli gülüşü eşidildi:

– Nə oldu, bəs sən ağarmışdın?



Qaraş suda öz əksinə baxdı. Doğrudan da, o, yenə qapqara idi. Başını aşağı salıb doluxsundu. Cücələr onu dövrəyə aldılar. Bayaq suya düşmüş cücə qabağa gəlib Qaraşı sığalladı və dedi:

– Sən qara olsan da, hamıdan, hamıdan qəşəngsən!





INV № 64104





*Reyhan Yusifqızı*

# HAMIDAN QƏŞƏNG

Rəssamlar
Elçin Cabbarov
Səidə Eyvazova

MƏNİM İLK KİTABIM
seriyasından olan kitablar
**4-7 yaşlı uşaqlar**
üçün nəzərdə tutulmuşdur.



© Altun Kitab
www.altun-kitab.com

ISBN 978-9952-24-054-2

1.00 AZN